# Ayaz VƏFALI - 85



Hörmətli Ayaz müəllim!

Sizi - görkəmli şair, tərcüməçi, tənqidçi və ədəbiyyatşünası yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1937-ci il aprelin 1-də Azərbaycanın Astraxanbazar (indiki Cəlilabad) rayonunun Sabirabad kəndində anadan olmusunuz. Burada orta məktəbi bitirdikdən və Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində təhsilinizi başa vurduqdan sonra əmək fəaliyyətinə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında başlamısınız. Redaksiyada texniki katib, ədəbi işçi, tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri, məsul katib və baş redaktorun müavini vəzifələrində çalışmısınız. Nəhayət, 1996-2014-cü illərdə, yəni 18 il ardıcıl olaraq "Ədəbiyyat qəzeti"nin baş redaktoru kimi məsul bir vəzifəni şərəflə və vicdanla yerinə yetirmisiniz.

Bədii yaradıcılığa hələ universitetdə təhsil alarkən başlamısınız və Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun qiyabi aspiranturasını bitirmisiniz. Aspiranturadan sonra "Füzuli və folklor" mövzusunda namizədlik dissertasiyası müdafiə etmisiniz.

Müxtəlif illərdə işıq üzü görən "İllər və nəsillər", "Ürək və od", "Turacın mahnısı", "Bəlkə onda öyrənmişik", "Özü oda yana-yana" şeirlər kitabının, "Füzuli öyrədir", "Sənətkar və xalq", "Füzuli xəlqiliyi" elmi tədqiqat əsərlərinin müəllifisiniz. Siz həmçinin böyük özbək şairi Əlişir Nəvainin "Leyli və Məcnun", Ukrayna ədəbiyyatının klassiki T.Q.Şevçenkonun "Kor qadın" poemalarını, rus yazıçısı A.Çakovskinin "Qələbə" siyasi romanını (I cild) və bir çox xalqların poeziyasından ayrı-ayrı nümunələri Azərbaycan dilinə tərcümə etmisiniz. Eyni zamanda dünya xalqlarının atalar sözü və məsəllərini Azərbaycan dilinə tərcümə edərək "Atalar sözü - ağlın gözü" kitabını araya-ərsəyə gətirmisiniz.

Sizin redaktor kimi fəaliyyətiniz də kifayət qədər zəngindir və çoxsaylı kitabların redaktoru olmusunuz. O cümlədən məhz elmi redaktoru olduğunuz kitablardan biri - "Ədəbiyyat qəzeti"nin biblioqrafiyası (I cild) 2014-cü ildə "Təhsil" nəşriyyatında işıq üzü görmüşdür.

1994-cü ildən bir qrup Azərbaycan ziyalısının dəstəyi ilə yaradılmış "Məhəmməd Füzuli" Beynəlxalq Ədəbi Əlaqələr Fondunun sədri olmusunuz.

Siz 1967-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüsünüz, habelə 1991-ci ildən Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin və 1997-ci ildən Yazıçılar Birliyi Məclisinin üzvü seçilmisiniz. 1984-cü ildə Azərbaycanın Əməkdar mədəniyyət işçisi və 2007-ci ildə Azərbaycanın Əməkdar incəsənət xadimi kimi fəxri adlara layiq görülmüsünüz.

Hörmətli Ayaz müəllim!

Sizi bir daha 85 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**